2024

AZƏRBAYCAN
SIĞORTAÇILAR
ASSOSİASİYASI

# Bülleten
# FEVRAL

## ASA-da millət vəkili Aydın Hüseynovla görüş keçirilib



Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin, habelə Aqrar siyasət komitəsinin üzvü, millət vəkili, Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, YAP Qaradağ rayon təşkilatının sədri Aydın Hüseynov Azərbaycan Sığortaçılar Assosiasiyasının qonağı olub. Görüşdə millət vəkilinə Assosiasiya haqqında, həmçinin sığorta sektorunda həyata keçirilən islahatlar barədə məlumat verilib. Millət vəkili Aydın Hüseynov ASA-nın fəaliyyətini, həmçinin sektorda reallaşdırılan tədbirləri yüksək qiymətləndirib və birliyə dövlətimizin qlobal iqtisadi siyasətinə uyğun qurulmuş fəaliyyətində uğurlar arzulayıb.



## Yerli sığortaçılar Münhendə beynəlxalq konfransda iştirak edib




ASA, İSB və bir qrup sığorta şirkətinin təmsilçilərindən ibarət nümayəndə heyəti Almaniyanın Münhen şəhərində işgüzar səfərdə olub. Heyət səfər çərçivəsində dəvətli olduğu "XIII Sığorta Hadisələrinin Tənzimlənməsi İllik Sammiti"ndə iştirak edib. Sammitdə sığorta hadisələrinin tənzimlənməsində kənar şirkətlərin (autsorsinq) rolu, süni intellekt və elektronlaşma, habelə açıq sığortaçılıq, iqlim dəyişikliklərinin sığorta sektoruna təsirləri və s. kimi aktual istiqamətlər başlıca müzakirə mövzusu olub.

## Sığorta agenti imtahanına hazırlıq kurslarına start verildi

Dövlət Məşğulluq Agentliyi, Azərbaycan Sığortaçılar Assosiasiyası və ASA Tədris Mərkəzinin birgə əməkdaşlığı çərçivəsində həyata keçirilən Sığorta agenti lisenziya imtahanına hazırlıq kurslarına start verildi. Layihənin əsas məqsədi sığorta agentlərini yetişdirməklə, həm sığorta bazarının inkişafına, eyni zamanda ölkədə məşğulluğun artırılmasına dəstək verməkdir.



## Türkiyədə yenilik – mənzillərin əvəzinə binalar sığortalanacaq

Bu barədə Türkiyənin Təbii Fəlakət Sığortaları Qurumunun (DASK) koordinatoru Erdal Turgut “Sigorta Medya”ya müsahibəsində deyib. O bildirib ki, Kahramanmaraş zəlzələsi göstərdi ki, ortaq sahələrdə bina tamamilə sığortalı olmadığı üçün müəyyən problemlər yaranır. Bunun üçün də mənzillərin əvəzinə binaların tam sığortalanması üçün işə başladıqlarını açıqlayan Turqut, BES-də (Fərdi Pensiya Sistemi) olduğu kimi DASK-a da dövlət dəstəyinin aktual olacağını vurğulayıb.

## Yeni nəsil sığorta agentləri üçün təlim proqramı təşkil olunacaq

Türkiyə Sığorta Birliyi (TSB), Türkiyə Ticarət Palataları və Birjaları Birliyi (TOBB) və Türk Sığorta İnstitutu Vəqfinin (TSEV) birgə əməkdaşlığı ilə "Yeni Nəsil Agent Proqramı" təşkil olunacaq. Onlayn şəkildə keçiriləcək təlimlər sığorta üzrə texniki biliklərdən idarəetməyə qədər müxtəlif mövzuları əhatə edəcək. 141 saatlıq onlayn təlimin yekununda iştirakçılara rəqəmsal sertifikatlar təqdim olunacaq.




## 2025-ci ildə kiber-sığorta yığımları 23 milyard dollara çatacaq

Bu barədə məlumat Sığorta Bilgi İnstitutunun (Triple-I) dərc etdiyi son nəşrdə yer alıb. Məlumata görə, müvafiq artım iki əsas amillə əlaqələndirilir. Birinci amil odur ki, artan məlumat sızması və kiber-hücum təhlükələri risklərin azaldılması strategiyalarını zəruri edir. İkinci amil sığortaçıların bu məhsul üzrə sığorta təminatının genişləndirilməsində əhəmiyyətli irəliləyiş əldə etməsi ilə bağlıdır.

## "A-Qroup Sığorta Şirkəti" ASC



*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***21 783 AZN***



## "İpək Yolu Sığorta" ASC

*Sığorta növü: AVSMMİS*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***2 239 AZN***

## "Qala Sığorta" ASC



*Sığorta növü: Nəqliyyat vasitələrinin tam sığortası*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***15 690 AZN***



## "Qala Həyat" Sığorta Şirkəti ASC

*Sığorta növü: İBHİS*
*Sığorta hadisəsi: Sığorta olunanın ölümü ilə əlaqədar faydalanan şəxslərə verilən sığorta ödənişi*
*Sığorta məbləği:* ***62 746,80 AZN***

## "Meqa Həyat Sığorta" ASC

*Sığorta növü: Kredit götürənin həyat sığortası*
*Sığorta hadisəsi: Sığorta olunanın vəfat etməsi*
*Sığorta məbləği:* ***4 041,32 AZN***





## "Meqa Sığorta" ASC

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***17 640 AZN***

## "PAŞA Həyat Sığorta" ASC

*Sığorta növü: Əlilliyə görə ödəniş*
*Sığorta hadisəsi: Metal əritmə zavodunda partlayış*
*Sığorta məbləği:* ***59 367,89 AZN***





## "Xalq Sığorta" ASC

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***44 291,23 AZN***

## "Meqa Sığorta" və "Meqa Həyat" şirkətləri "Təlim və Təcrübə" proqramı təşkil edib



Yeni sığorta agentlərinin hazırlanması və peşəkarlığının yüksəldilməsi məqsədilə "Meqa Sığorta" və "Meqa Həyat" şirkətləri "Təlim və Təcrübə" proqramı təşkil edib.

Bu proqram çərçivəsində təlimlərə qoşulmuş şəxslər sığorta qanunverciliyi və sığorta müqavilələrinin bağlanması sahəsində bilik və bacarıqlar əldə ediblər. Ən fəal iştirakçılar isə iş ilə təmin olunublar.

## Meqa Sığorta Qrupu ilə FHN-in birgə təlimi baş tutub

"Meqa Sığorta" və "Meqa Həyat" şirkətlərində Fövqəladə Hallar Nazirliyinin Bakı Regional Mərkəzi tərəfindən “Fövqəladə hallar zamanı davranış” qaydaları mövzusunda maarifləndirmə tədbiri keçirilib.



Tədbir zamanı Meqa Sığorta Qrupunun işçilərinə dəm qazı təhlükəsi, zəlzələ zamanı davranış qaydaları, odsöndürücü balondan istifadə qaydaları, çimərlikdə davranış qaydaları əyani şəkildə izah olunub. Bundan əlavə olaraq FHN əməkdaşları təlim iştirakçılarına odsöndürən balondan istifadə qaydalarını da izah ediblər.

## PAŞA Sığorta öz tərəfdaşları üçün təlim təşkil edib




PAŞA Sığorta öz tərəfdaşları üçün maliyyə məhsullarını və konsepsiyalarını başa düşmək, maliyyə risklərini və imkanlarını qiymətləndirmək, məlumatlı seçimlər etmək üzrə bacarıqların inkişaf etdirilməsi məqsədilə təlim təşkil edib.

15-dən çox hüquqi şəxs olan sahibkarlıq subyektinin cəlb olunduğu təlimdə iştirakçılara sığortanın üstünlükləri, praktikada maliyyə xidmətlərinin əldə edilməsi, biznes və investisiya mühitinin tənzimləmə çərçivəsi barədə geniş məlumat verilib. Bununla yanaşı, Dünya Bankının B-Ready hesabatı, onun tarixi, qiymətləndirmə indikatorları və ölkə reytinqi üçün əhəmiyyəti barəsində iştirakçılar məlumatlandırılıb.

ASA AZƏRBAYCAN SIĞORTAÇILAR ASSOSİASİYASI

Index: AZ1000, Baku, Azerbaijan
Ünvan: İçəri şəhər, Sabir küç. 3
Tel\fax: (+994 12) 492 80 45
E-mail:office@asa.az

www.asa.az